**21.11.2023: xəbər**

**Khazar University employee at the II Strategic Development Conference of Career Centers**

On October 31, 2023, Khazar University's Career Center assistant Mustafa Hasanli participated in the II Strategic Development Conference of Career Centers held at the Baku Higher Oil School (BHOS).

The initial part of the conference focused on introducing the Graduate Employability Rating platform. Bahman Huseynli, head of the Department of Labor Market Analysis of the State Employment Agency, provided comprehensive details about the platform. He emphasized that the platform's primary objective is to establish consistent communication between higher education institutions and the labour market.

The head of the Central Career Branch of the State Employment Agency, Togrul Alakbarov, gave his recommendations on "Standards of career centers", "What services should career centers provide?", "Management of career centers".

Advisor to the Minister of Science and Education Nijat Mammadli emphasized the importance of data collection as a means of adapting to the constantly developing labor market.

The guest speaker Umur Chalıkoghlu highlighted shifting paradigms within careers and discussed the crucial role that career centers play in guiding students.

Tarana Aslanova, ADA University Career Center Manager prioritized strategic action plans, incorporating artificial intelligence, and fostering strong partnerships with global corporations.

These initiatives are vital in preparing students with essential skills needed to excel in a competitive job market.

The conference showcased cutting-edge technology that facilitates seamless communication between job seekers and potential employers. This innovative approach simplifies the job search process for students, enhancing the transition from education to the professional realm.

Once more, the conference underscored the significance of career centers in higher education, emphasizing their indispensable role in shaping students' successful futures.

**“Xəzər”in əməkdaşı Karyera Mərkəzlərinin II Strateji İnkişaf Konfransında**

2023-cü il oktyabrın 31-də Xəzər Universitetinin Karyera Mərkəzinin assistenti Mustafa Həsənli Bakı Ali Neft Məktəbində (BANM) keçirilən Karyera Mərkəzlərinin II Strateji İnkişaf Konfransında iştirak edib.

Konfransın ilk yarısı Məzunların Məşğulluq Reytinqi platformasının təqdimatı haqqında olub. Dövlət Məşğulluq Agentliyinin Əmək bazarının təhlili departamentinin şöbə müdiri Bəhman Hüseynli platforma haqqında geniş məlumat verib. Qeyd edib ki, platformanın əsas məqsədi ali məktəblərin əmək bazarı ilə mütəmadi əlaqəsini təmin etməkdir.

Dövlət Məşğulluq Agentliyinin Mərkəzi karyera filialının müdiri Toğrul Ələkbərov “Karyera mərkəzlərinin standartları”, “Karyera mərkəzləri hansı xidmətləri göstərməlidir?”, “Karyera mərkəzlərinin idarə olunması” mövzularında tövsiyələrini bildirib.

Elm və təhsil nazirinin müşaviri Nicat Məmmədli daim inkişaf edən əmək bazarına uyğunlaşma vasitəsi kimi məlumatların toplanmasının vacibliyini vurğulayıb.

Qonaq məruzəçi Umur Çalıkoğlu karyeranı təşkil edən dəyişkən paradiqmalara diqqət çəkərək, karyera mərkəzlərinin tələbələrin istiqamətləndirilrməsində mühüm rolundan bəhs edib.

ADA Universitetinin Karyera mərkəzinin meneceri Təranə Aslanova diqqəti sistematik fəaliyyət planlarına, süni intellektin inteqrasiyasına və qlobal korporasiyalarla tərəfdaşlıq əlaqələrinin gücləndirilməsinə yönəldib. Bu tədbirlər tələbələri rəqabətli iş bazarında uğur qazanmaq üçün tələb olunan əsas bacarıqlarla təchiz etməkdən üçün çox vacibdir.

Konfransda iş axtaranların potensial işəgötürənlərlə problemsiz əlaqəsini asanlaşdıran qabaqcıl texnologiya nümayiş etdirilib. Bu innovativ yanaşma tələbələr üçün iş axtarışı prosesini sadələşdirir, təhsildən peşəkar dünyaya keçidi daha səmərəli edir.

Konfrans ali təhsildə karyera mərkəzlərinin əhəmiyyətini və tələbələrin uğurlu gələcəklərinin formalaşmasında əvəzsiz rolunu bir daha nəzərə çatdırıb.